# “MƏNİM ŞEİRLƏRİM ÖVLADLARIMDI”




Hər bir insanın həyatı ömrü boyu yazılmaqda olan kitaba bənzəyir. Bu kitabın hər səhifəsi ömrün müxtəlif anlarını əks etdirir. Sonluq isə insan oğlunun bu dünyaya vidası ilə sona çatır. Bir-birini təkrarlayan və yaxud bir-birinin eyni olan iki ömür tapmaq çətindir. Hər ömür kitabı bir növ təcrübə məktəbidir.

Hacı xanımın ömür kitabında onun acılı-şirinli günləri,bu dünyaya fərqli baxışı,insanlıq mövqeyi öz əksini tapıb.

İnsan dünyaya gələrkən, bu həyata böyük sevinclə qədəm qoyur. Sən demə həyatın keşməkeşləri hələ qarşıdaymış... Sevinci qədər əzabı da şirin olan bu ömrü hərə bir cür başa vurur. Hacı xanım şeir-ayırmaq da, məhəbbət, hörmət qazanmaq da olar, düşmənçilik də. Onun şeirlərində həyat və zaman haqqında düşüncələr - iztirabların, hisslərin tufanı, ağlın üsyanı ilə verilib. İnsan nə zaman həyatı və dünyanı anlamağa başlayır?

İztirab odundan keçəndən sonra...
Yavaş-yavaş verdiyini alan dünya,
Birəl-birəl ələkdən ələyən dünya,
Yaxşını yamandan,mərdi namərddən
Xeyiri şərindən ayıran dünya.

Səmimiyyət şeirlərin şah damarıdır. Hacı xanımın şeirlərindəki səmimiyyət insana bir rahatlıq gətirir, zövq verir.

Yaradandan, yaşadandan
Ağac əkib bağ salandan,
Şeir deyib söz yazandan
Bu dünyada ad qalacaq.

Deməк, şeir ürəkdə aşıb-daşan ,çarpazlaşan duyğuların, beyini gəmirən fikirlərin ifadə vasitəsidir. Hacı xanımın şeirləri ona övladları qədər əzizdir:

Mənim şeirlərim övladlarımdı,
Onları bətnimdə yetişdirmişəm,
Bir şeir dünyaya gələnə qədər
Gedib o dünyanı görüb gəlmişəm.

Bugünkü ədəbiyyatımızın, şeiriyyətimizin baş mövzusunu şəhidlərimizə yazılmış şeirlər təşkil edir. Hacı xanımın şeirlərində də bu bir ana xətt kimi keçir. Bəlkə də özü də bir şəhid bacısı olduğu üçün bu qədər bu mövzuya bağlıdır. Şəhid analarının dərdini bu qədər dərindən anlayır. Onun şəhid qardaşı Vüqara, ümumiyyətlə şəhidlərə aid şeirlərini kövrəlmədən oxumaq qeyri-mümkündür. Lakin bu şeirlərdə qürur, fəxr hisləri də güclüdür:

lərində gənclərimizə ana nəsihəti verir: həyatın çətin sınaqlarından üzüağ çıxmağı bacarmaq lazımdır, ürəyinizdən “imanı”, dilinizdən “şükürü” əksik etməyin.

Şükür olsun Allahıma
Ömrü bada verməmişəm,
Qocalığa yetişərək,
Əlləri boş gəlməmişəm.
Bir təmiz ad,təmiz vicdan
Bir də iman gətirmişəm.

Hər bir kitabın fəsilləri olduğu kimi insan ömrünü də fəsillərə bölmək olar:

Qayğısız uşaqlıq illəri bahar fəslini,-qaynar gənclik dövrü yayı, müdriklik çağı payız fəslini xatırladır. Sonra isə qış fəsli-yaşa dolaraq qocalığa təslim olmaq...

Ömür kitabını vərəqləyirəm,
Yaşadığım ömür burda yazılıb.
Bəzisi qırmızı,bəzisi qara yazılıb.

Hacı xanım xoş günləri qırmızı, kədərli günləri qara səhifə adlandırır. Amma onun üçün vacib məqam var:

Ömür kitabına fəzilətlərin yazılması!

Görülən işləri, əməlləri geriyə qaytarmaq mümkün olmur . Hər nə etmişiksə, nə yaratmışıqsa qoyub gedirik. Bu dünyadan köçəndə yalnız yaxşı əməllərimiz qalır. Hacı xanımın şeirlərini oxuduqca, insan bu qənaətə gəlir ki, əgər bu dünyada insanlıq vəzifəni layiqincə yerinə yetirmisənsə ölümdən qorxmaq lazım deyil.

Bədii ədəbiyyatımızda xoş sözün, nəzakətin əhəmiyyəti haqqında , sözün kəsəri barədə çox deyilmiş, çox yazılmışdır. Gəlin bu məlum həqiqəti bir də Hacı xanımın şeir dünyasında izləyək:

Sözün yerini, qiymətini bil,
Sənə qulaq asıb, dinləməyənə,
Anlayıb, başa düşməyənlərə
Gəl sözü alçaltma, ucuza satma.

Şeirin məzmunundan belə nəticə çıxarırıq ki, “Söz” - böyük qüvvədir. Çünki,sözlə insanları birləşdirmək də olar,

Orada güllələr uğuldayanda,
Burda anaların ürəyi əsdi.
Sizin sinənizə tuşlanan güllə,
Burda insanların ümidin kəsdi.

Bu bir tale, alın yazısı
Ölümlə,ölməzlik qazandınız siz,
Dünyada ən uca zirvə sayılan
Şəhidlik zirvəsinə ucaldını siz!..

Beləliklə, sadə, zəhmətkeş, imanlı bir ananın - Balacaxanım ananın ömür kitabını vərəqlədik. Ananın diləyilə bu sətirləri oxucularımıza ünvanlayırıq:

Deyirəm ki, ürəklərdə kədərə yer qalmasın,
Vaxtsız ölüm heç kəsin ömrünə yazılmasın.

*2024*



***Adil ABDULLAYEV,***
***yazıçı-publisist,***
***Əməkdar mədəniyyət işçisi***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü,***
***Prezident Mükafatçısı***